## Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi

# Polis orqanlarında opta rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir

Respublikanın şəhər, rayon polis orqanlarında **/Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla/ polis sahə rəisi, əməliyyat müvəkkili və yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili üzrə inspektor** vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.

Cəmi 150 vəzifənin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Test imtahanı – "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"-nin tələblərinə cavab verən namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar əsasında keçirilir. Test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçıların xidməti vəzifələrini yerinə yetirən zaman qanunvericilik aktlarını tətbiq etmək üçün bilik və bacarığı, ünsiyyət yaratmaq, özünü təqdimetmə bacarığı, təmkinliyi, fikir və rəyini ifadə etmək qabiliyyəti kimi xüsusiyyətləri Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilən müsahibə zamanı qiymətləndirilir.

**Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas və müəllim (pedaqoq) ixtisası üzrə təhsil almış, yaşı 28-dək olan,** həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla) "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları (daxili işlər orqanlarında xidmətə bərpa olunan və yaxud yenidən qəbul edilən orta və böyük rəis heyəti vəzifələrində işləmiş və Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayan və qeydiyyatda olan şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

**Quba (1), Qusar (1), Saatlı (1), Salyan (1), Şuşa (1), Hacıqabul (1), Kürdəmir (1), Göygöl (1) və Qazax (1) rayon polis şöbələrində vakant yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili üzrə inspektor vəzifəsi üçün müsabiqədə yalnız göstərilmiş rayonlarda yaşayan və qeydiyyatda olan azı 3 il pedaqoji staja malik şəxslər iştirak edə bilərlər.**

Müsabiqə qaliblərinin təyinatı zamanı ilk növbədə həmin rayonda yaşayış şəraiti olanlara üstünlük veriləcək və təyinatlarından sonra onların xidməti iş yerləri **Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcəkdir.**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **2019-cu il fevral ayının 18-dən mart ayının 30-dək** http://www.mia.gov.az/index.php?/az/content/29799/ ünvanda yerləşdirilmiş elektron ərizə formasını dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizənin yaşayış yeri üzrə qeydiyyatda olduğu ərazinin polis orqanına göndərilməsi barədə elektron poçt vasitəsilə məlumat aldıqdan sonra namizədlər həmin polis orqanlarına aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- şəxsiyyət vəsiqəsi;
- ali təhsil haqqında diplom;
- hərbi bilet (kişilər üçün);
- əmək kitabçası (olanlar üçün);

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

«Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları», test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər Daxili İşlər Nazirliyinin ***www.mia.gov.az*** ünvanlı Veb saytında yerləşdirilmişdir.

***Əlavə məlumat almaq üçün əlaqə telefonları:***
**(012) 590-92-37; (012)-590-92-54. (012) 590-93-27; (012) 590-93-45; (012) 590-93-64; (012) 590-95-23.**

# Yanğın avtomobillərinə maneə olmamalıdır

Yanğınların statistikası göstərir ki, payız-qış mövsümündə yanğınlar ən çox yaşayış evlərində baş verir. Bu da qış mövsümündə istilik enerjisinə olan tələbatla bağlı mənzillərdə qaz və elektrik cihazlarından daha çox istifadə edilməsi, qapı-pəncərələrin bağlı olması ilə əlaqədardır.

Təbii ki, yanğın baş verdikdə ilk növbədə yanğından mühafizə xidmətinə məlumat verilir və hadisə yerinə yanğınsöndürmə avtomobilləri cəlb olunur.

Bu texnikanın yanğının mənbəyinə yaxınlaşması üçün yaşayış məntəqələrində yanğın keçidləri inşa olunur. Bu keçidlərin ilk növbədə hər iki tərəfi açıq olmalıdır. Yanğın keçidlərinin parametrləri ilə bağlı irəli sürülən tələblər "Azərbaycan Respublikasının Dövlət Tikinti Normaları"nın 2.6-1 maddəsində öz əksini tapmışdır.

Hər hansı texniki normalar haqqında danışmazdan əvvəl, diqqətimizi yanğın keçidləri və ona bitişik olan ərazilərin istifadəsi ilə bağlı olan ümumi tövsiyə və məhdudiyyətlərə yönəldək.

Əvvəlcə bu faktı qeyd etməliyik ki, binaların həyətlərində çox vaxt avtomobillərin park edilməsi üçün yerlər təyin olunur. Bu gün sayı hədsiz çox olan nəqliyyat vasitələrini onların sahibləri ilk gördükləri boş yerdə bir gecəlik və ya bir neçə günlük saxlamaqdan çəkinmir. Lakin bu zaman nəzərə almırlar ki, həmin bu yer yanğın keçidinin bir hissəsi ola bilər.

Yanğın keçidlərinin texniki tələblərinə əsasən keçidin eni birbaşa onun yanında mövcud olan binaların mərtəbəliyindən asılı olmaqla 3,5 metrdən az olmamalıdır. Burada sadə prinsip mövcuddur - bina nə qədər yüksək olarsa, keçidin eni bir o qədər enli olmalıdır. Belə ki, 15-ci mərtəbədə baş vermiş yanğının söndürülməsi üçün çox güclü texnikanın mövcudluğu zəruridir. Yanğın avtomobillərinin gücü isə bilavasitə onların qabaritlərindən asılıdır, yanğının söndürülməsində istifadə olunacaq yanğın texnikasının texniki imkanları binanın ölçülərinə uyğun olmalıdır. Yanğın texnikasının yaşayış binalarına və ictimai binalara, eləcə də onlara bitişik tikililərə yanaşması və yanğınsöndürənlərin avtonərdivanlardan və ya avtoqaldırıcılardan hər hansı bir mənzilə və ya otağa keçə bilmək imkanı təmin edilməlidir. Bu qayda yanğın keçidlərinin yalnız eninə deyil, hündürlüyünə də şamil olunur. Yanğın keçidinin hündürlüyü 4,25 metrdən az olmamalıdır.

Bir qayda olaraq, nəqliyyat keçidlərinin kənarından mərtəbələri 2-10 olan binalaradək məsafə 5-8 metr, 11 və daha çox mərtəbəli binalaradək isə 8-10 metr qəbul edilməlidir. Bu zonada hasar çəkilməsinə, hava elektrik xətlərinin yerləşdirilməsinə və ağacların sıra ilə əkilməsinə yol verilmir.

Binaların giriş olmayan fasadları boyunca yanğınsöndürən maşınların keçməsi üçün yararlı, maşınlardan yer örtüyünə və torpağa düşə bilən yük nəzərə alınmaqla eni 6 m olan zolaqlar nəzərdə tutulmalıdır.

Təəssüf ki, bəzən sakinlər binaların giriş yolunu kənar maşınların daxil olmaması üçün dirək basdırmaqla məhdudlaşdıraraq yanğınsöndürən avtomobillərin maneəsiz hərəkətinə əngəl törədirlər.

Unutmaq olmaz ki, yanğının söndürülməsi üçün hər saniyə qiymətlidir.

**Elnur BABAYEV,**
**DYNX-nin yanğına qarşı təbliğat şöbəsinin rəisi.**

# Kənd təsərrüfatı məhsullarının istehsalı artıb

Yanvarda kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 313,1 milyon manat təşkil edib ki, onun da 301,6 milyon manatı heyvandarlıq, 11,5 milyon manatı isə bitkiçilik məhsullarının payına düşüb.

Dövlət Statistika Komitəsinin məlumatında əvvəlki ilin müvafiq ayı ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalı 2,4 faiz, o cümlədən bitkiçilik məhsulları 43,6 faiz, heyvandarlıq məhsulları isə 1,2 faiz artdığı bildirilir.

# Bu il ölkədə 39 istehsal, emal müəssisəsi açılacaq

2018-ci ildə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu müvəkkil kredit təşkilatları vasitəsilə sahibkarlara ümumi dəyəri 617,8 milyon manat olan 999 investisiya layihəsinin maliyyələşdirilməsinə 160,2 milyon manat güzəştli kredit verib.

Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 9000-dək yeni iş yerinin açılmasına imkan yaradır.

Verilmiş kreditlərin 64,3 faizi respublikanın regionlarının, 35,7 faizi isə Bakı şəhərinin qəsəbələrinin payına düşür. Son illər fond tərəfindən maliyyələşdirilən 35 istehsal, emal və infrastruktur müəssisəsi 2018-ci ildə fəaliyyətə başlayıb. 2019-cu ildə daha 39 müəssisənin açılması gözlənilir.

*Sadə peşə adamları*

# Həmişə gərəkli olan sənətkar

Yaxşı sənətkar yaşından asılı olmayaraq həmişə gərəkli və hörmətli olur. Belə sənət sahiblərindən biri də Nizami Cəfərovdur.

O, Qəbələ şəhər 1 nömrəli məktəbi bitirdikdən sonra 1973-cü ildə sürücülük peşəsinə yiyələnib.

Avtomobilə olan hədsiz həvəsi onu avtomobil təmiri ustası edib. Uzun illər rayonumuzdakı müxtəlif avtomobil təmiri emalatxanalarında sürücülərə layəqatlə, canbaşla xidmət edib, onları xoş üzlə, şirin dillə qarşılayıb, razı yola salıb.

Nizami təkcə 3 dəfə Rusiyanın Tolyatti şəhərindəki avtomobil zavodunda kursdan keçib, təcrübə qazanıb. Rayonda onun yetirmələri də bacarıqlı usta kimi tanınır və Nizaminin başını uca edirlər.

Onlardan biri də Nizami ustanın əvvəllər işlədiyi



"müvazinətpozulma" emalatxanasında çalışan Ramin Əhmədovdur. Ramin 2012-ci ildən burada işləyir.

Nizami usta 2015-ci ildən təqaüdə çıxıb. Buna baxmayaraq tez-tez öz şagirdinə baş çəkir, ona dayaq olur, bilmədiklərini başa salır.

Nə yaxşı ki, bu cür sənətkarlar vardır.

**Emin BARATOĞLU,**
**AJB-nin üzvü,**
**"Qəbələ"nin müxbir postunun rəhbəri.**